**UOT 94**
**https://doi.org/10.59849/2710-0820.2024.1.115**

**Səxavət Əmrahov**
*AMEA Tarix İnstitutu, böyük laborant*
*Azərbaycan*
*sexavetemrahov@gmail.com*

# QUTİLƏRİN QONŞULARI İLƏ QARŞILIQLI SİYASİ ƏLAQƏLƏRİ

***Açar sözlər:*** *Qutilər, Akkad, Utuheqal, Tirikan, Mesopotamiya.*

Qutilər indiki Cənubi Azərbaycanın ərazisində, Urmiya gölündən cənubda məskunlaşmış tayfa birlikləri idilər. Mesopotamiyanın qədim yazı mətnləri onları Elamdan şimaldakı dağlıq ərazilərdə yaşadıqlarını bildirir. Qutilər haqqında məlumatı əsasən akkad mənbələrindən əldə etmək olar. Quti etnik kimliyi barədə bir neçə variant irəli sürülüb. Bunlardan biri qutilərin türk mənşəli olmasıdır. Bu fikri müdafiə edənlər arasında ən önəmli yeri Berno Landsberger tutur. O, II Türk Tarih Konqresində etdiyi məruzəsində quti hökmdar adlarının qədim türk dilində olan feillərlə uyğunlunu nəzərə çatdırmış, bununla da qutilərin qədim türk tayfalarından olduğunu bildirmişdir (8, 105-106). İqor Dyakonov U.Henningin 1962-ci ildə irəli sürdüyü qutilərin hind – Avropa mənşəli xalq olması fikrini təsdiqləmiş, qutilərlə toxar xalqı arasında mümkün əlaqədən bəhs etmişdir (16, 37-49).

Strabon və ondan sonra gələn digər müəlliflər Atropatena ərazisində (indiki Cənubi Azərbaycan) Uti vilayəti və etnosu haqqında məlumat vermişlər. Utilər qutilərin varisi hesab olunurlar (5, 32). 1930-cu illərdə Alman şərqşünas Unqnad qutiləri hürrilərlə və urartulularla genetik baxımdan çox yaxın olduğu fikrini irəli sürmüşdür. Daha sonralar İqor Dyakonov və İqrar Əliyev qutiləri utilərlə eyniləşdirmək təklifini irəli sürdülər (13, 142-143; 11, 44-46). Ehtimal edilir ki, həmin qutilərin bir hissəsi şimala köç etmiş və indiki udinlər onların nəsilləridir (4, 32). Hammurapi kitabələrinin birində qutilər Subartu və Tükrişdə yaşayan xalqlarla qonşuluqda xatırlanır (14, 84). Akkad hökmdarı I Salmanasarın "göydə ulduzlar qədər" ifadəsindən müəyyən etmək olar ki, qutilər sayca çox olan etnos idilər (4, 32).

Bəzi mixi yazılı mətnlərdə Quti ölkəsi Subartu ilə sinonim şəklində işlədilir (12, 8). Mixi yazılı qaynaqlardakı məlumata görə Kiçik Zab və Diyala çayı arasındakı bölgə, daha dəqiq desək Şərqi Toros dağları ilə Zaqros dağları arasındakı bölgə Quti ölkəsi adlanırdı. E.ə. 2400-cü ildən əvvəlki mətnlərdə Quti ölkəsinin şimaldan Subartu, cənubdan isə Elam ölkəsi ilə həmsərhəd olduğu barədə məlumat verilir (10, 248). Müasir Luristan dağları qutilərin kassilərlə və elamlılarla təmas zonası olmuşdur (15, 66). E.ə. II-I minilliklərə aid mətnlərdə Zaqros dağlarının olduğu bölgə tamamilə Quti ölkəsi adlandırılmış, burada yaşayan yerli əhali quti adlandırılmışdır. Qutilər köçəri həyat tərzi sürən və müxtəlif qəbilələrdən ibarət tayfa konfederasiyası şəklində yaşayırdılar. Eposların məlumatına görə Akkad hökmdarları quti qəbiləsi ilə savaşmaq məcburiyyətində qalmışdır. Köçəri həyat tərzi sürməsi qutilərin konkret lokalizasiyası ilə bağlı fikir yürütməkdə çətinlik yaradır (10, 248-249).

Qutilər tarix səhnəsinə e.ə. III minilliyin ortalarında Şumer Ur şəhərinin hökmdarı Ada-ba-Luqalannemunduya qarşı dağlıq ölkələrin koalisiyasının tərkibində hərbi münaqişələrdə iştirak edərək çıxmışlar. Akkad hökmdarı Naram-Suenin dövründə Qutilərin hərbi münaqişələrdə iştirakına dair daha çox məlumat var (12, 9). E.ə. III minilliyin ikinci yarısına aid təsərrüfat sənədlərində Akkad hökmdarlarının Quti ölkəsindən olan tərcüməçilərin xidmətindən istifadə etdiyinə dair məlumat var (14,84).

Əsasən yaylaq maldarlığı ilə məşğul olan qutilər getdikcə şumer şəhər-dövlətləri üçün təhlükə mənbəyinə çevrilmişdilər. Təxminən e.ə. 2159-cu ildə quti hökmdarı Enridapizirin (bəzi mənbələrdə Elulu) hakimiyyəti dövründə

hərbi koalisiya yaradan quti və lullubi tayfaları Mesopotamiyanın cənub bölgəsinin zəngin torpaqlarını işğal etmək üçün yürüşə başladılar. Akkad hökmdarı Sarkalişarri bir neçə döyüşdə qalib gəlsə də yekunda məğlub oldu. Fransız assurşünası Türe-Danjin tərəfindən nəşr olunan İşkun-Daqana ünvanlanmış məktubda Mesopotamiyanın cənubunda Akkad hökmdarı Sarkalişarri dövründə qutilərin səbəb olduğu çaxnaşmalardan xəbər verilir. Sarkalişarri uzun müddət qutilərlə savaşda idi və bu məktub onun qutilər üzərində qələbəsindən sonra yazılmışdır. Məktubda Qutilərin təsərrüfat həyatına vurduğu ziyandan bəhs edilir (21, 297-301) (şəkil 1.).

Qutilərin Mesopotamiya ərazisində yarım əsrə yaxın davam edən quti hökmranlığı bərqərar olunduqdan sonra qutilər tərəfindən Mesopotamiyada daxili məsələlərin həllinə yerli canişinləri cəlb etməklə öz elçiləri vasitəsilə vergi toplamaqla kifayətlənmişlər. Şumer dilində “sukkal” adlandırılan bu elçilər həmçinin yerli idarəçilərə də nəzarət edirdilər. İraqın Tello şəhərində tapılmış qədim hesbatların birində Laqaş şəhərinə ezam olunmuş elçiyə “keyfiyyətli yağ verilməsi” barədə məlumat var (1, 13). Qutilər qonşuları ilə daim əlaqədə olmuşdular.

Mətnlərdə qutilər haqqında mətnlərin azlığı onlar haqqında daha ətraflı məlumatların toplanmasında çətinlik yaradır. Mesopotamiyada aşkar edilmiş yerli mənbələrdə quti işğalından sonra törətdilən qəddarlıqlardan və zülmdən bəhs edilir. Qutilərin Mesopotamiyada hakimiyyətinə son qoyulması ilə bağlı ən önəmli mənbə olan “Utuheqalın poeması” (şəkil. 2) adlandırılan daş kitabədə qutilər “dağların zəhərli ilanı, tanrıların düşməni, Şumerin dövlətçiliyini dağlara aparan, Şumeri ədavətlə dolduran, əri arvadından, uşaqları valideynlərindən ayıran, düşmənçiliyə və zorakılığa rəvac verən” xalq kimi göstərilir (6, 11-12).

Əksər tədqiqatçıların fikrinə görə Qutilər Mesopotamiyanın işğalı dövründə hələ dövlət idarəçiliyində nailiyyət qazanmamış, bu əraziyə qəsb məqsədilə gəlmişdilər. Ancaq rəsmi Şumer mənbələri bu barədə fərqli fikir yürütməyə əsas verir. Çünki Quti liderlərinin hakimiyyəti burada tanınırdı. Onlar şərqli icma şəklində təqdim olunsa da şumer mənbələrində Qutium “ölkə” kimi tanınır (12, 9). Şumer şəhərlərinin dağıdılmasına həsr olunmuş ağılarda qutilərin ələ keçirdikləri hərbi əsirləri öz ölkələrinə apardıqları haqqında məlumat verilir. Bu fakt Quti ölkəsində ilkin şəhər mədəniyyətinin formalaşması haqqında fikir formalaşdırır. Lakin əsirlərin sonrakı aqibəti haqqında məlumat yoxdur (2, 253).

Akkad hökmdarı Naram-Suenin hakimiyyətinin sonunda və Şarkalişarrinin hakimiyyətinin ilk illərində Akkad imperiyası üçün tənəzzülə gətirəcək siyasi qarışıqlıq müşayiət olunmuşdur. Hakimiyyətinin son illərində Naram-Suen bir sıra uğusuz müharibələr aparmalı olmuşdur. Kitabələrin birində Naram-Suenin Şumer dini mərkəzi Nippur şəhərinə qarşı yürüşü şərh edilmişdir. Qutilərin şəhər əhalisinin köməyinə gəlməsi ilə əlaqədar olaraq yürüş uğursuzluqla nəticələndi. Quti hökmdarı Enridapizir quti dəstələrinin başında dururdu. Onun yazılı abidəsi Nippurda aşkar edilmişdir. Naram–Suenin hakimiyyətinin son illərində qutilər Akkad dövlətini tez-tez narahat edirdilər. Qutilərə qarşı mübarizədə Naram-Suenə Elam hökmdarı Kutik-İnşuşinak kömək edirdi (7, 80-81). Şimal bölgəsinə nəzarət tamamilə itirilmiş və qutilər artıq cənub bölgələrə də nüfuz etməyə başlamışlar. Akkad tarixinə aid bəzi kitabələrdə bu tənəzzülün səbəbi kimi Naram-Suenin müqəddəs Nippur şəhərində Enlilin məbədinin talan edilərək sərvətinin paytaxta aparılması göstərilir. Yazılara görə bu hadisələrdən sonra tanrı qəzəblənərək qutiləri Akkad imperiyasının üzərinə göndərmişdir. Buradan belə nəticə çıxarmaq olar ki, bu dövrdə Akkad imperiyasının müxtəlif yerlərində mərkəzi hakimiyyətə qarşı üsyanlar baş qaldırmış və qutilərin yürüşü Akkad imperiyasının tənəzzülünü labüd etmişdir.

Qutilərin Akkad imperiyasının paytaxtını nəzarətə aldıqlarına dair yazlı mənbələr çox məhduddur. Qutilərin Mesopotamiyanın yalnız cənub hissəsini deyil, şərq və şimal hissələrinə də nüfuz etmişlər. Belə ki, XX əsrin ortalarında İraqın Raniyə şəhəri yaxınlığında, Təll-Şemşara kitabələrində Simurrum ölkəsinin adı çəkilir. Bu ölkənin harada yerləşdiyi haqqında dəqiq məlumat bildirilmir. Mənbələrdə onun “Hürri sərhəddi boyunda”, yəni Mesopotamiyanın şimal və şimal-şərq bölgəsinə uyğun gəlir və bu da onun müasir İraqın Dərbəndixan bölgəsində işarə edir. Təll-Şemşara mətnlərində Simurrumun adsız hakiminin döyüşdən sonra Turukku-

ma sığındığı bildirilsə də o, quti hökmdarına təhvil verilmişdir. Buradan belə nəticə çıxartmaq olar ki, Simurrum quti hökmdarından vassal asılılığında olub və qutilərin hakimiyyəti Mesopotamiyanın şimal hissələrinə də nüfuz etmişdir (18, 24). Bu dövrə aid yazılı mənbələrin məhdudluğu daha geniş fikir bildirməkdə çətinlik yaratsa da bəzi mənbələrdən aydın olur ki, Laqaş şəhəri daxili müstəqilliyini qorumuş, hətta suvarma kanallarını bərpa etmiş və hökmdar Qudeanın heykəllərini hazırlamaqla onun adını əbədiləşdirmişlər. Bəzi mənbələrdə Laqaş hakimlərinin Elama hərbi səfərlər təşkil etməklə bağlı məlumatlara da rast gəlinir (9, 83).

Quti hökmdarı Sium e.ə. 2112-ci ildə Uruk və Ur şəhərlərinə Ur-Nammu və Utuheqalı hakim təyin etmişdir. 3 il sonra hakimiyyət dəyişikliyi baş vermişdi. Hakimiyyətə gələn Tirikanın tacqoyma mərasimindən 40 gün sonra Uruk şəhərinin sakinləri hakimləri Utuheqalın başçılığı altında üsyan qaldırmışdılar. “Vaydnerin xronikası” adı kimi tanınan rəsmi sənəddə bildirilir ki, Utuheqal əvvəl balıqçılıqla məşğul olmuş, üsyana balıq vergisinə etiraz olaraq başlamışdır. Üsyan nəticəsində e.ə. 2109-cu ildə Quti hökmdarı Tirikan taxtdan salınmış və Mesopotamiyada hakimiyyətinə son qoyulmuşdur. Qutilərin Mesopatimyada hakimiyyətlərinə son qoyulsa da onlar Elam konfederasiyasının tərkibində fəaliyyət göstərirdilər (3, 35).

Tarixçiləri bu gün də düşündürən əsas məsələlərdən biri Akkad imperiyasının süqutunun əsas səbəbləridir. Çünki imperiyanın banisi Sarqon güclü dövlət yaratmış, onun nəvəsi Naram-Suen onun hüdudlarını genişləndirmişdir. Şübhə yoxdur ki, süquta səbəb olan qüvvənin ən az Akkad imperiyasının qüvvəsinə bərabər olması gərəkdir. Ancaq qutilərin lazımi gücə sahib olduğunu göstərən heç bir dəlil yoxdur. Qutilərin Cənubi Mesopotamiyada nəzərə çarpacaq ənənəsi və mədəni irsi qeydə alınmayıb (20, 98).

Qutilərin sonrakı tarixi ilə bağlı məlumatı Təll-Şemşaradan tapılmış arxeoloji materiallardan əldə etmək olur. Burada əvvəl Turukki hökmdarının Şuşarra şəhərinin hakimi təyin olunmuş, lakin Assur kralı I Şamşi-Adadın Arrapha və Qabra şəhərlərinə hücumundan sonra mövqeyini dəyişərək Assurun vassal asılılığına keçən Kuvariyə ünvanlanmış məktublar tapılmışdır. Məktublardan Qərbi Zaqros dağlarında yaranmış siyasi vəziyyəti analiz etmək olar. Kuvarinin hakimi olan Turukki şahı mərkəzi şəhəri olan Kunsumda ilk məktubda İndassu, ikinci məktubda Endusse adlandırılan Quti hökmdarı tərəfindən 3 il mühasirədə saxlanmışdır. Güman olunur ki, Turukki hökmdarı qonşu bölgələrin hakimlərini Quti hökmdarına qarşı birləşməyə çalışsa da buna nail ola bilməmişdi (19, 91).

Qutilərin Mesopotamiyada siyasi - inzibati idarəçiliyinə gətirdiyi əsas üstünlüklərdən biri, bu dövrdə daxili qarşıdurmaların aradan qaldırılması olmuşdur. Qutilər I Sarqondan sonra zəifləmiş mərkəzi hakimiyyəti xeyli gücləndirdilər. Şumer ölkəsinin idarəçiliyini yerli nümayəndələrə həvalə edən qutilər daxili məsələlərə qarışmır, hətta yerli hakimlərin sülalə idarəçiliyinə, yəni hakimiyyətin atadan oğula keçməsinə belə icazə verirdilər. İqor Dyakonov hakimiyyətin yerli nümayəndələrə həvalə edilməsinə səbəb kimi qutilərin idarə sistemində kifayət qədər təcrübəli olmaması ilə əlaqələndirir. Lakin A. Əlimirzəyev bunun vergilərin vaxtında və maneəsiz çatdırılması məqsədilə edildiyi fikrini irəli sürür. Çünki yüzillərlə oturuşmuş idarəçilik sisteminin üzərinə yeni idarəçilik sistemi qurmaq yerli əhali arasında narazılığa səbəb ola bilərdi (1, 253-254). Quti hökmdarı Enridapizirin özünü Akkad hökmdarı Naram-Suen kimi “dünyanın dörd tərəfinin hökmdarı” adlandırması şumer-akkad ənənəsinin təsiri altında olduğunu göstərir.



Şəkil 1. İşkun-Daqana məkub



Şəkil 2. Utuheqalın qələbə stelası

**Ədəbiyyat**


1. Əlimirzəyev A. Azərbaycan diplomatiyasının miladdan öncəki tarixindən. AMEA Tarix İnstitutu Elmi əsərlər, cild 36-37. Bakı 2011
2. Əlimirzəyev A. Qutilərin Şumerdə inzibati idarəçiliyinin xüsusiyyətləri. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Cild 3. Bakı 2018
3. Əlimirzəyev A. Qutilərin Şumerdə sonuncu döyüşləri. Milli təhlükəsizlik və hərbi elmlər elmi-praktik jurnal. Cild 3. Bakı 2017
4. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən, Bakı, 1994
5. Qeybullayev Q. Qədim türklər və Ermənistan, Bakı, 1992
6. Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə (tərtib və tərcümə edəni, ön sözü və şərhlərin müəllifi Solmaz Qaşqay), Bakı,2006
7. Yusifov.Y, Qədim Şərq tarixi, Bakı, 1993
8. Landsberger. B. "Ön Asya Kadim Tarihinin Esas Meseleleri". İkinci Türk Tarih Kongresi: 20-25 Eylül 1937, Ankara: Türk Tarih Kurumu. s. 98-110
9. Kemalettin K. Eski Mesopotamya Tarihi. Istanbul 2012
10. Okay Pekşen. Eskiçağ Önasya Tarihinde Gutiler. Turkish Studies - Historical Analysis
11. Алиев И. О некоторых вопросах етнической истории о азербайджанского народа, Баку, 2002
12. Алимирзоев А. Из политической истории кутиев. Вестник Дагестанского государственного университета. Серия 2. Гуманитарные науки. 2019. Том 34. Вып. 1
13. Алимирзоев А. Письменные сведения о кутийских пленных и рабах. Материалы I Международого нахского научного конгресса. Грозный 2018
14. Алимирзоев А. Заметки о кутийском языке и ономастике. Вопросы Истории №2. Москва 2020
15. Алимирзоев А. Кутийская областъ Губин. ДГУ Дагестанское культурно-историческое общество. Сборник материалов II Международной научной конференции. Махачкала 2017.
16. Дъяконов И.М. Эламский язык, Языки Азии и Африки. Т. III. - М., 1979.
17. Ю.Юсифов, Ранные контакты Месопотамии с северо – восточными странами, Вестник древней истории, Москва 1987
18. Eidem J. Lossoe J. The Shemshara Archives.1. The Letters. Kobenhavn, 2001.
19. Eidem J. News from the Eastern Front: The Evidence from Tell Shemshāra. Iraq Vol. 47 (1985)
20. E. A. Speiser. Some Factors in the Collapse of Akkad. *Journal of the American Oriental Society,* Vol. 72, No. 3 (Jul. - Sep., 1952)
21. Sydney S. Notes on the Gutian Period. *The Journal of the Royal Asiatic Society of Great Britain and Ireland,* No. 2 (Apr., 1932)

## Резюме

**Сахават Амрахов**

**Подитические взаимоотнашения кутиев с соседними племенами**

Одним из древних племенных союзов, проживавших на территории Азербайджана, были Кутии. Относительно этнической принадлежности кутии выдвинут ряд мнений и установлено, что территория их проживания находится на территории Южного Азербайджана. Кутии сыграл важную роль не только в истории Азербайджана, но и в истории Ближнего Востока. Таким образом, они приняли участие в падении Аккадского государства, являющегося древнейшей известной империей в истории, и после оккупации под его властью Месопотамии правили здесь около полувека. В указанный период кутии сохранили внутреннее управление в Месопотамии в прежнем виде, но самым важным изменением, которое они произвели, стало предотвращение внутренних конфликтов в этой области. Здесь они установили связи с тюрками и эламитами, а также воевали против военных союзов соседних царств против кутии.

***Ключевые слова:*** *Кутии, Аккад, Утухенгаль, Тирикань, Месопотамия*


## Summary

**Sakhavat Amrahov**

**Mutual political relations of the gutians with their neighbours**

One of the ancient tribal unions living on the territory of Azerbaijan was the gutians. A number of opinions have been put forward regarding the ethnicity of the Gutians and it has been established that the territory of their residence is located in the territory of Southern Azerbaijan. Gutians played an important role not only in the history of Azerbaijan, but also in the history of the Middle East. Thus, they took part in the fall of the Akkadian state, which is the oldest known empire in history, and after occupying Mesopotamia under its rule, they ruled here for about half a century. During this period, the Gutians maintained internal governance in Mesopotamia as they were, but the most important change they made was the prevention of internal conflicts in this area. Here they established connections with the Turks and Elamites, and also fought against the military alliances of neighboring kingdoms against the Gutians.

***Keywords:*** *Gutians, Accad, Utu-Hengal, Tirikan, Mesopotamia*